DOI:10.30546/gdu.2023.344-346

**UOT:37.**

# UZUN ƏSRLƏR BOYU QAZANILMIŞ MİLLİ VƏ MƏNƏVİ KEYFİYYƏTLƏR

***dosent Babayeva Nübubət İsax, Rüstəmova Əzizə Arif qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Xalqımızıən uzun əsrlər boyu özləri üçün əxz etdikləri milli-mənəvi dəyərlərin, ideyaların formalaşmasında böyük mütəfəkkirlərin, şairlərin əvəzsiz rolu olmuşdur. Bildiyimiz kimi Azərbaycanda dünya şöhrətli şəxsiyyətlər yaşamış, yazıb- yaratmışlar. Onların əsərlərində milli mədəniyyətin, eləcə də başər mədəniyyətinin zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bu gün Azərbaycan ədiblərinin yaratdıqları əsərlər dünya mədəniyyətinə də böyük töhfələr vermişdir.*

**Açar sözlər:** milli və mənəvi keyfiyyətlər, dünya mədəniyyəti, iqtisadi islahatlar, müstəqillik ideyası

**Ключевые слова:** национальные и моральные ценности, мировая култура, экономические реформы, идея независимости

**Key words:** national and moral qualities, world culture, idea of independence, economic reforms

Böyük Azərbaycan mütəfəkkiri, XII əsrin ən tanınmış şairi N.Gəncəvi dünya mədəniyyətini Azərbaycan mədəniyyətindən bəhrələnən fikir və ideyalarla zənginləşdirmişdir. Məsələn: "Kərpickəsən kişinin dastanı əsərində əməyə, zəhmətə münasibət, "Sultan Səncər və qarı" hekayəsində qadına hörmət və ehtiram, "Xeyir və Şər" əsərində Xeyirin Şər üzərində qələbəsi, ümumbəşəri ideyalar səviyyəsinə qaldırılmışdır. Hələ XII əsrdə ideya kimi Nizamini düşündürən azadlıq, müstəqillik ideyası XX əsrin sonunda H.Əliyev tərəfindən reallaşdırıldı.

Yaxud, XVI əsrdə yaşamış M. Fizulinin ideyaları da Azərbaycan cəmiyyətindən qaynaqlanmışdır.

Nizami azad, müstəqil cəmiyyət ideyasını irəli sürürdüsə, M. Fizuli də azad, sərbəst, müstəqil düşüncəli insan ideyasını irəli sürürdü. ("Leyli və Məcnun").

Babək özünəməxsus obrazlar yaratmaqla ömürlük yaddaşlarda qalan müdriklərimiz aşağıdakı ideyaları irəli sürmüşlər:

1. Qəhrəmanlıq, igidlik, vətənpərvərlik, doğma torpağa bağlılıq;
2. Azadlıq, demokratiya və hümanizm prinsiplərinin təbliği ilə;
3. İnsanlar arasında birlik və həmrəylik yaratmaq;
4. Elmin, iqtisadiyyatın və mədəniyyətin inkişafını canlandıran, zənginləşdirən.

1969 – cu ildən bəri başlanan iqtisadi inkişaf ənənələri bu gün böyük neft strategiyası planlarının həyata keçirilməsinin təməli hesab olunur. Bu günkü iqtisadi uğurlarımızın bünövrəsi iqtisadi inkişaf zəmninə əsaslanır.

Bu gün cənab prezidentimiz "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf" üzrə dövlət proqramlarının imzalanması zamanı dedi ki, apardığımız iqtisadi islahatlar nəticəsində indi Azərbaycanda bütün sektorlar inkişaf etməkdədir.

Son zamanlar Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması Azərbaycan iqtisadiyyatında yeni dirçəliş yaranmasının mühüm mərhələlərindən biri kimi xoş əhval-ruhiyyə yaradır.

Bütün bunlarda bir məqsəd var:

Müstəqil Azərbaycanı inkişaf etdirmək üçün iqtisadi cəhətdən savadlı, səviyyəli şagirdlər yetişdirməkdir.

Qədim adət-ənənələrimizin dərindən, öyrənilməsi üçün xeyli işlər görülmüşdür və görülür. Məs: "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin 2000 ci il aprelin 9 –

DOI:10.30546/gdu.2023.344-346

da Bakıda keçirilmiş milli-mənəvi irsimizin öyrənilməsi ideyasını özündə əks etdirən qədim mədəniyyət abidələrimizə göstərilən böyük diqqət və qayğının təzahürüdür.

Hər çıxışında üzünü gənclərə tutub müraciət edən ulu öndərimiz onlara müraciət edərək deyirdi: “Siz həqiqətən Azərbaycanın gələcəyisiniz”. Bu gün azərbaycanlı gənclər milli-mənəvi dəyərlərimizə yaxşı yiyələnməli, onu davam və inkişaf etdirməlidirlər. Hər bir azərbaycanlı gənc milli-mənəvi dəyərlərə düzgün yiyələnib, onu sonrakı nəsillərə layiqincə çatdırmalıdırlar. Azərbaycanlı gənclər üçün yaradılan yüksək təhsil almaq imkanlarından maksimum istifadə etməlidirlər.

Gənclərin yaxşı təhsil alması, yaxşı yaşaması, həyata nikbin nəzərlərlə baxması onların müstəqil Azərbaycanın layiqli davamçısı kimi fəaliyyət göstərməsinə təminat verən reallıqdır.

Əziz prezidentimiz İ.Əliyev bu gün atasının ideyalarını davam etdirir.

Tövsiyədə gətirdiyim nümunıləri ümumiləşdirərək belə qənaətə gəldim ki, hansı əsrin yadigarı olmasından asılı olmayaraq bu xalq inciləri torpaqla bağlı çox şey deyir. Torpaq xalqındır, xalqın dövlətidir, qeyrətidir, onun günü-güzəranıdır, yaşayışın ilkin mənbəyidir. Bu torpağın üstünə ayaq basan hər kəs onun qeyrətini çəkməli, lazım olanda bir qarışından ötrü müsəlləb əsgərə çevrilməlidir. Bu ümumiləşməyə əlavə edərək deyirəm ki, bunlar xalq pedaqogikasının və tərbiyənin bütün tərkib hissələri baxımından əhəmiyyətlidir.

Məktəblilərin təlim-tərbiyəsində bu cür materiallardan iqtisadi, əxlaqi və əmək tərbiyəsində bu cür materiallardan yerli-yerində və yaradıcılıqla istifadə edilməlidir.

Deyilənlərdən aydın oldu ki, aşağıdakı nəticəyə gəlim.

1. İqtisadi tərbiyə - şagirdləri iqtisadi sahəyə aid keyfiyyətlərlə, bilik və bacarıqla silahlandırma prosesidir. Onun məzmunu, məqsədi və vəzifələri bu proseslə bağlıdır.

2. Xalq pedaqogikası materialları iqtisadi tərbiyənin kompleks vasitələrindəndir.

3. Xalq pedaqogikası materiallarında iqtisadi tərbiyə adamlarda iqtisadi məsələlərlə əlaqədar məsələləri, keyfiyyətləri, ilk növbədə isə işgüzarlığı, qənaətçilliyi, çörəyə, torpağa hörmət hissini formalaşdırmaq məqsədilə həyata keçirilən mütəşəkkil fəaliyyət düşünülmüş şəkildə tətbiq olunan kompleks təsirlər sistemi kimi təadim edilir.

4. Cəmiyyətin başlıca vəzifələrindən biri olan vətəndaşların iqtisadi tərbiyəsinin forma və məzmunca zənginləşdirilməsi dövrün tələbidir.

5. İnsan iqtisadi təhsilə yiyələnmədən quruculuğun fəal və şüurlu iştirakçısı ola bilməz.

6. İqtisadi təhsil və tərbiyə şagirdlər tərəfindən dərk edilmiş iqtisadi fəaliyyət prinsiplərini və normalarını , tələblərini həyata keçirmək yollarını göstərir.

7. Şagirdlərin iqtisadi tərbiyəsində informatika və kompüterin xüsusi yeri var.

8. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində iqtisadi təhsilə maraq oyadılmalıdır.

9. İqtisadi tərbiyəni gücləndirmək üçün ailə, məktəb, ictimaiyyət birgə olmalıdır Uşaqların iqtisadi fəaliyyətə cəlb olunması onların iqtisadi problemləri başa düşmələrinə səbəb olur, onlarda iqtisadi dünyagörüşünün formalaşmasını sürətləndirir.

Bütün bunları yekun olaraq L.Qasımova, R.Mahmudova “Pedaqogika” dərsliyində (2012) belə izahat verirlər.

Şagirdlərdə iqtisadi tərbiyə işinin səmərəliliyinin miqyasını genişləndirmək vacibdir.

1. Azərbaycanda iqtisadi inkişafın əsas mahiyyəti və radikal iqtisadi islahatların başlıca ideyalarını bilmək.

2. Əməyin təşkili məsələlərinə iqtisadi meyar nöqteyi-nəzərindən yanaşmağı bacarmaq.

3. Fərdi və ictimai mala-mülkə qənaətlə yanaşmağı təzahür etdirmək.

4. Xalq təsərrüfatının vəziyyəti və inkişafına görə cəmiyyətin qarşısında əmək borcunu başa düşmək təşkil edir.

(L.Qasımova, R.Mahmudova “Pedaqogika” Dərslik, 2012. səh. 430)

DOI:10.30546/gdu.2023.344-346

Ali məktəblərimizdə açılmış "İqtisadiyyat" ixtisaslarının açılması çox əhəmiyyətlidir. Respublikamızda açılan iqtisadiyyat kurslarının açılması şagirdlərin dünyagörüşünün formalaşmasına böyük köməkdir.

Orta məktəb müəllimləri də vətənimizin çiçəklənməsi naminə dərsdə iqtisadi tərbiyəyə geniş yer verməli, onları iqtisadi biliklə silahlandırmalıdırlar.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1996.
2. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, 1992.
3. N.Kazımov, Ə.Həşimov "Pedaqogika", "Maarif" Bakı, 1996.
4. Z.Qaralov "Azərbaycanda təhsil islahatının əsasları", "Azərbaycan müəllimi", 25-29 fevral, 2001.
5. Ə. Həşimov "Azərbaycan xalq pedaqogikası" Bakı, 1993.
6. N. Kazımov "Məktəb Pedaqogikası", Bakı, "Çaşoğlu", 2002.
7. N.Kazımov "Mərhələli tərbiyə nəzəriyyəsi", Bakı,
8. L.Qasımova, R. Mahmudova, "Pedaqogika" "Çaşoğlu", Bakı, 2012.
9. N.Xəlilov, K.Hacıyeva, S.Hacıyeva, "Azərbaycan ailə etikası", Gəncə, 2001.

## МОРАЛЬНЫЕ И НАЦИОНАЛЬНЫЕ СВОЙСТВА ПРИОБРЕТЁННЫЕ В ТЕЧЕНИИ ДОЛГИХ ВЕКОВ

***Бабаева Нубубет Исак кызы, Рустамова Азиза Ариф кызы***

***Резюме***

В формирование национальных и моральных ценностей нашего народа испокон веков большую роль сыграли наши знаменитые писатели, поэты и философы. Созданные ими произведение сделали большой вклад в мировую културу. Наряду с развитием национальной культуру они дали толчок развитию мировой културы.

## MORAL AND NATIONAL QUALITIES CREATING DURING THE CENTURIES

***Babayeva Nububat Isakh, Rustamova Aziza Arif***

***Summary***

To form national and moral bvalnes of our nation for long centuries play grand role our fatous writers and scientist. Creating by them works did grand endowment to bwords culture.

***Rəyçi: dos. Binnətova Şəlalə***
***Təhsilin pedaqogikası və mtodikası kaferasının 05 iyul 2023-cü il tarixli iclasın 14 saylı protokolu***
***Daxil olma tarixi 11 iyul 2023-cü il***